# Ermənistanın "yenilməz ordu" mifi Aprel döyüşlərində darmadağın edildi

2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsində erməni əsgərlər Aprel döyüşlərində yaşadıqları ruh düşkünlüyünü təkrar yaşadılar, döyüş meydanlarından qorxub qaçdılar. Onlar başa düşdülər ki, Azərbaycan Ordusunun qarşısını heç nə ilə ala bilməyəcəklər. Ordumuz qarşısına qoyulmuş tarixi vəzifəni uğurla icra edirdi. 44 gündən sonra Şuşada bayrağımız dalğalandırıldı...

7

Azərbaycan
3 aprel 2024-cü il



# Ermənistanın "yenilməz ordu" mifi Aprel döyüşlərində darmadağın edildi

**"Aprel döyüşləri Azərbaycan Ordusunun sanki sınaq imtahanı idi. Bu döyüşlər 23 ildə qurduğu səngərlərə və müdafiə sədlərinə arxayın olan düşmənin "yenilməz ordu" mifini darmadağın etdi".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat söyləyib ki, 2016-cı ilin aprelində 4 gün davam edən döyüşlər Azərbaycan əsgərinin hansı gücə qadir olduğunu sübuta yetirdi: "Düşmən ordusu böyük itki verdi, minlərlə hektar ərazimiz işğaldan azad olundu. Ermənistanın Aprel döyüşlərinə qədər nəzarət etdiyi yüksəkliklərin bir neçəsi, habelə Lələtəpə və Talış kəndi istiqamətindəki strateji yüksəkliklər işğaldan azad edildi, Cocuq Mərcanlıda təhlükəsizlik təmin edildi. Bir sözlə, Aprel döyüşləri düşmənin döyüş iradəsini sındırdı. Hətta Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan yalvararaq döyüş əməliyyatlarının dayandırılmasını istədi və münaqişənin danışıqlar yolu ilə həll olunmasına razı olduğunu bildirdi. Lakin bir müddətdən sonra o, yenə öz erməniliyində qaldı".

Deputat bildirib ki, Aprel döyüşləri 44 günlük Vətən müharibəsinə gedən yolun başlanğıcı idi: "2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsində erməni əsgərlər Aprel döyüşlərində yaşadıqları ruh düşkünlüyünü təkrar yaşadılar, döyüş meydanlarından qorxub qaçdılar. Onlar başa düşdülər ki, Azərbaycan Ordusunun qarşısını heç nə ilə ala bilməyəcəklər. Ordumuz qarşısına qoyulmuş tarixi vəzifəni uğurla icra edirdi. 44 gündən sonra Şuşada bayrağımız dalğalandırıldı. O cümlədən keçən ilin sentyabr ayında keçirilmiş lokal xarakterli antiterror tədbirləri ilə 23 saatda Qarabağdakı erməni separatizminin kökü kəsildi, bütün ərazilərdə suverenliyimiz bərpa olundu. Beləliklə, 2016-cı il aprelin 2-dən başlayaraq Prezident İlham Əliyevin rəhbərliyi altında ordumuzun yazmağa başladığı döyüş salnaməsi bu il prezident seçkilərində Xankəndidə erməni separatiziminin tabutuna axırıncı mismar vurulmaqla başa çatdırıldı".

Azər Badamov onu da qeyd edib ki, indi Azərbaycan tarixdə heç vaxt olmadığı qədər güclüdür. Qarşımızdakı əsas vəzifə isə erməni işğalı altında qalmış 8 kəndin azad olunaraq bütün ərazilərimizə keçmiş məcburi köçkünlərin qaytarılmasıdır. 2022-2026-cı illəri əhatə edən Böyük Qayıdışa dair Dövlət Proqramı uğurla icra olunur. Artıq 5 min nəfərdən çox keçmiş məcburi köçkün öz doğma yurdlarına qayıdıb. 2026-cı ilin sonuna qədər isə 140 min keçmiş məcburi köçkünün doğma yurduna qayıtması planlaşdırılıb. Həmçinin 100-dən çox şəhər və kəndin baş planları təsdiq olunub, yeni şəhərlər və kəndlər tikilir.

"Bütün bunlar Prezident İlham Əliyevin yenilməz liderliyinin və dəyişilməz mövqeyinin təntənəsi, xalqımızın böyüklüyünün bariz göstəricisidir. Bu gün üzərimizdən "məğlub xalq" adı götürüldüyünə görə başımız ucadır. Biz qalibik, qürurluyuq və öz yurdumuzun sahibiyik. Bizə bu xoşbəxtliyi yaşadan şəhidlərimizə Allahdan rəhmət diləyirik", - deyə deputat bildirib.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***